*Azərbaycan Ordusu, Azərbaycan əsgəri bilməlidir ki, ölkəmizin ərazi bütövlüyü nəyin bahasına olursa-olsun, bərpa edilməlidir.*

**Heydər ƏLİYEV**




# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır  1 iyul 2020-ci il  № 39 (2457)  Qiyməti 30 qəpik


# Millətin gözünün nuruna dönüb tarixin bağrından qopan ordumuz!



*Azərbaycan həmişə başəri dövlət olub, ordusu azərbaycançılığın ordusu olub. Azərbaycan dövlətçiliyi həmişə mübarizələrlə qorunub, mübarizələrlə bərpa edilib. Xalqın ruhu mübariz ruh kimi tarixin axarını həmişə dəyişə bilib. 1918-ci ilin mayında da dəyişdi, Şərqdə ilk Demokratik Respublika yarandı, Azərbaycan tarixə "Mən varam!" dedi...*

1918-ci ilə kimi Müsəlman Korpusu kimi tanınan ordu birləşməsi Azərbaycan Xalq Cümhuriyyəti Nazirlər Şurasının 26 iyun 1918-ci il tarixli Qərarı ilə Əlahiddə Azərbaycan Korpusu adlandırıldı. Bu addəyişmə həm də mahiyyətin dəyişməsiydi və neçə onillər sonra yeni bir tarixin yaranmasında bu addəyişməyə istinad edildi, Əlahiddə Azərbaycan Korpusunun yaranması amilinə əsaslanıldı. Böyük tarixi şəxsiyyət Heydər Əliyev "Azərbaycan Respublikasının Silahlı Qüvvələri Günü haqqında" 22 may 1998-ci il tarixli Fərman imzaladı. 26 iyun Azərbaycan Respublikasının Silahlı Qüvvələrinin yaranması günü kimi tarixləşdi. Ulu Öndər deyirdi: "Biz 26 iyun gününü bayram elan etmişik. Bu, tamam əsaslıdır, məqsədəuyğun, qanunauyğundur. Çünki 80 il bundan öncə məhz bu gün Azərbaycan Xalq Cümhuriyyətinin - ölkəmizin müstəqilliyini elan edən Xalq Cümhuriyyətinin, müstəqil Azərbaycanı qurub-yaradan, hələ Gəncədə fəaliyyət göstərən hökumətin ilk addımlarından biri Azərbaycanın milli ordusunun yaranması haqqında verdiyi qərar olmuşdur...".

Müstəqil Azərbaycan Respublikasının ordusu yaradılmağa başladı.

1920-ci ilin aprelində rus imperiyası Azərbaycan Demokratik Respublikasını ilhaq etdi. Dövlət ilhaq olunmuşdu. Xalqın mübarizə əzmini, azadlıq, müstəqillik istəyini ilhaq etməyə qüdrəti çatmazdı. 71 il çəkən mübarizə milli-xəlqi ruhun qələbəsiylə, Azərbaycanın dövlət müstəqilliyinin bərpasıyla nəticələndi - Azərbaycan Respublikası Azərbaycan Demokratik Respublikasının varisi kimi tarixə "Mən varam!", "Əbədiyyən də var olacam!" dedi...

Azərbaycanın dövlət müstəqilliyi bərpa olunduqdan aylar sonra hakimiyyət səriştəsizliyinə, siyasi ambisiyaların ciddiliyinə, separatçılıq meyillərinə, vətəndaş müharibəsi təhlükəsinə görə müstəqil Azərbaycan dövlətçiliyin itirilməsi təhlükəsilə üzləşmişdi. Onda xalq böyük tarixi şəxsiyyət Heydər Əliyevi ciddi təkidlə hakimiyyətə dəvət etdi...

**(Ardı 3-cü səhifədə)**

# Naxçıvan hərbi şəhərciyində zabit-gizir ailələrinə yeni xidməti mənzillər təqdim edilib



26 İyun - Azərbaycan Respublikası Silahlı Qüvvələri Günü münasibətilə Naxçıvan hərbi şəhərciyində zabit-gizir ailələrinə yeni xidməti mənzillər təqdim edilib.

Əlahiddə Ümumqoşun Ordu komandanı general-polkovnik Kərəm Mustafayev Silahlı Qüvvələr Günü və yeni xidməti mənzillərin təqdim edilməsi münasibətilə hərbi qulluqçuları və onların ailə üzvlərini təbrik edib.

General-polkovnik Kərəm Mustafayev ümummilli lider Heydər Əliyevin müəyyənləşdirdiyi ordu quruculuğu siyasətinin bu gün Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev tərəfindən uğurla davam etdirildiyini deyib. Bildirib ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbovun diqqət və qayğısı sayəsində hərbi infrastrukturun müasirləşdirilməsi istiqamətində mühüm işlər görülür, zabit-gizir ailələrinin mənzil-məişət şəraitinin yaxşılaşdırılmasına və səmərəli istirahətinin təşkilinə xüsusi diqqət yetirilir. Hərbçi ailələrinə yeni xidməti mənzillərin təqdim edilməsi də növbəti qayğının ifadəsidir.

Mənzillə təmin olunan zabit Emil Hüseynov 8 ildir ki, muxtar respublikada xidmət etdiyini bildirərək bu müddətdə hərbi qulluqçuların sosial-məişət şəraitinin daim diqqətdə saxlanıldığının şahidi olduğunu deyib. O vurğulayıb ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin hərbi hissələrdə xidmətin vəziyyəti, əsgərlərin məişət şəraiti və zabit-gizir ailələrinin sosial təminatı ilə maraqlanması şəxsi heyətdə vətənpərvərlik hisslərinin daha da güclənməsinə səbəb olur. Göstərilən qayğının hərbi qulluqçuları daim həvəsləndirdiyini qeyd edən zabit Emil Hüseynov bundan sonra da nümunəvi xidmət edəcəklərinə söz verib.

Cəlilabad rayonundan olan hərbçi ailəsinin üzvü Zəhra Quluzadə Naxçıvanda yaşadıqları müddətdə onlara göstərilən dövlət qayğısından danışıb. "İstifadəmizə verilən tam təmirli mənzillər rahat yaşayışımız üçündür", - deyən Zəhra Quluzadə yaradılan şəraitə görə hərbçi ailələri adından dövlətimizə minnətdarlıq edib.

Çıxışların ardından binaya baxış olub. Zirzəmi ilə birlikdə 4 mərtəbəli binanın birinci mərtəbəsində dərzi, ayaqqabı təmiri sexi, hərbi və qarışıq mallar mağazaları fəaliyyət göstərəcək. Fərdi qazanxana sistemi quraşdırılan binada Naxçıvan Qarnizonu Mənzil İstismar İdarəsinin bölmələri üçün iş otaqları da yaradılıb.

Binanın 2-ci, 3-cü və 4-cü mərtəbələrinin hər birində 13 mənzil olmaqla, ümumilikdə 39 mənzilin hər biri müasir mebel dəstləri və lazımi məişət əşyaları ilə təmin olunub. Həmin mərtəbələrdə lazımi avadanlıqlarla tam təmin edilmiş mətbəx və camaşırxana yerləşir.

Mənzillərə baxış zamanı hərbi qulluqçuların və ailə üzvlərinin təəssüratları ilə maraqlanan Əlahiddə Ümumqoşun Ordu komandanı general-polkovnik Kərəm Mustafayev yeni mənzillərin sakinlərinə uğurlar arzulayıb.

**Baş leytenant
Nəriman NƏCƏFOV,
"N" hərbi hissəsi**

# Gözətçi gəminin ekipajı döyüş atışlı məşqlər keçirib



*2020-ci ilin döyüş hazırlığı planına əsasən, Hərbi Dəniz Qüvvələrinin modernləşdirilmiş gözətçi gəmisinin silah və texniki vasitələrinin yoxlanılması məqsədi ilə döyüş atışlı məşqləri keçirilib.*

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, həyəcan siqnalı ilə qaldırılan heyət qısa müddət ərzində gəmini döyüşə və səfərə hazırlayıb.

Dənizə çıxış zamanı gəminin yenilənmiş mexanizmləri yoxlanılıb, həmçinin artilleriya və bomba atışları icra olunub. Qarşıya qoyulan tapşırıqları müvəffəqiyyətlə yerinə yetirən gəmi heyəti dəqiq atışlarla hədəfləri məhv edib.

# Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

## Ermənistan silahlı birləşmələri atəşkəs rejimini pozub

**29 iyun 2020-ci il.**

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində snayper tüfənglərindən də istifadə etməklə sutka ərzində atəşkəs rejimini 27 dəfə pozub.

Ermənistan Respublikası Çəmbərək rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

İşğal altında olan Xocavənd rayonunun Kuropatkino, Füzuli rayonunun Qərvənd, Qaraxanbəyli, Horadiz, Cəbrayıl rayonunun Mehdili kəndləri yaxınlığında, həmçinin Tərtər rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə tutulub.

**30 iyun 2020-ci il.**

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində iriçaplı pulemyotlardan da istifadə etməklə sutka ərzində atəşkəs rejimini 35 dəfə pozub.

Ermənistan Respublikası Çəmbərək rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonunun Zamanlı kəndində və adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Tərtər rayonunun işğal altında olan Çiləbürt, Ağdam rayonunun Acarlı, Xocavənd rayonunun Kuropatkino, Füzuli rayonunun Qaraxanbəyli, Aşağı Seyidəhmədli, Qorqan, Horadiz, Cəbrayıl rayonunun Mehdili kəndləri yaxınlığında, həmçinin Goranboy, Tərtər, Ağdam, Xocavənd və Füzuli rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə tutulub.

# Əlahiddə Ümumqoşun Orduda gənc əsgərlər növbəti xidmət yerlərinə yola salınıblar



*Əlahiddə Ümumqoşun Orduda ixtisas hazırlığı kurslarını uğurla başa vurmuş gənc əsgərlər növbəti xidmət yerlərinə yola salınıblar.*

Azərbaycan Respublikasının Dövlət himni səsləndirildikdən sonra tədbirdə çıxış edən polkovnik Mehman Gülməmmədov xidmətə çağırılmış gənclərin ən çətin döyüş tapşırıqlarını yerinə yetirəcək peşəkar əsgərlər kimi hazırlanması üçün plana uyğun dərs və məşğələlərin keçirildiyini bildirərək gənc əsgərləri ixtisas hazırlığı kursunu uğurla başa vurmaları münasibətilə təbrik edib.

Əsgər Cahandar Nəsirov məşğələlərdə qazandıqları bilik və bacarıqların onları yenilməz və möhkəm iradəli döyüşçülərə çevirdiyini deyərək bundan sonra da Vətənin müdafiəsində ayıq-sayıq dayanacaqlarına söz verib.

Çıxışların ardından Əlahiddə Ümumqoşun Ordu Komandanı general-polkovnik Kərəm Mustafayevin təbrikini şəxsi heyətə çatdıran general-mayor Teymur Eyyubov bildirib ki, təlimlər zamanı və döyüş növbətçiliyinin təşkilində şəxsi heyətin yüksək peşəkarlıq nümayiş etdirməsi kurslarda qazanılanların nəticəsidir. İnanırıq ki, ixtisas hazırlığı kurslarını uğurla başa vuran əsgərlərimiz də nümunəvi xidmətləri ilə komandirlərinə və valideynlərinə hər zaman başucalığı gətirəcəklər.

Tədbirdə əsgərlər müxtəlif ixtisaslar üzrə elementləri praktiki yerinə yetiriblər. Ən yaxşı tabor, bölük və taqım adına layiq görülən bölmələrə keçici bayraqlar təqdim edilib və nümunəvi xidməti ilə fərqlənən hərbi qulluqçular mükafatlandırılıblar.

"Əlahiddə Ümumqoşun Ordunun marşı" ifa edildikdən sonra bölmələrin təntənəli keçidi olub və gənc əsgərlər növbəti xidmət yerlərinə yola salınıblar.

**Baş leytenant
Nəriman NƏCƏFOV,
"N" hərbi hissəsi**

# Millətin gözünün nuruna dönüb tarixin bağrından qopan ordumuz!

(Əvvəli 1-ci səhifədə)



Ulu öndər Heydər Əliyevin dönməz siyasəti ilə vətəndaş qarşıdurması aradan qaldırıldı, separatçılıq və separatçılıq meyilləri ləğv edildi, ordu quruculuğuna yeni yanaşma onun nizami ordu kimi formalaşmasına zəmin yaratdı. Müstəqilliyin ilk illərində - 1991-1993-cü illərdə ordu quruculuğu elmi əsaslarla aparılmırdı, pərakəndəlik, səriştəsizlik, kadr hazırlığı kimi amillər ordunun nizami ordu kimi formalaşmasına imkan vermirdi. Digər tərəfdən, yaradılmış yerli müdafiə batalyonları dövlətin maraqlarından daha çox fərdi mənafelərin müdafiəçisiydi. Yəni, ordu funksiyasını yerinə yetirmək səviyyəsində qurulmamışdı. Ermənistanın Azərbaycana qarşı elan etmədən apardığı ədalətsiz müharibənin getdiyi bir vaxtda belə ordu dövlətin ərazi bütövlüyünü, dövlətçiliyi müdafiə etməyə qadir deyildi. Bu vəziyyət isə müstəqilliyə silahlı təhdid idi. Azərbaycanda siyasi vəziyyətdən, siyasi vəziyyətə görə yaranmış hərbi vəziyyətdən istifadə edir, Qarabağın dağlıq hissəsində, eləcə də Ermənistanla sərhəd rayonlarda hərbi üstünlüyə yiyələnirdi ki, bu da torpaq itkisinə şərait yaradırdı.

Ulu Öndərin hakimiyyətə qayıdışı ilə digər sahələrdə olduğu kimi, ordu quruculuğunda da əsaslı islahatlar həyata



keçirilməyə başlandı. Yerli müdafiə batalyonları buraxıldı, orduda vahid komandanlıq təmin edildi, müstəqil Azərbaycanda ordu quruculuğu hərbi, hərbi-elmi nəzəriyyələr əsasında davam etdirildi, xüsusi tədbirlər həyata keçirildi ki, bunlar da ordunun nizami ordu kimi formalaşdırılmasının başlanğıcı, ordu quruculuğunun yeni mərhələsi oldu.

Görülən tədbirlər şəxsi heyətin döyüş hazırlığını yüksəldirdi. 1994-cü ilin yanvarında keçirilən Horadiz əməliyyatı ordunun şəxsi heyətinin mənəvi-psixoloji hazırlığını da yüksəltdi. Bu əməliyyat nəticəsində 20 kənd, o cümlədən Cəbrayıl rayonun Cocuq Mərcanlı kəndi ermənisizləşdirildi. Bu gərəkli qələbə əsgərlərin döyüş əzmini, qələbə ruhunu ordu quruculuğunun tələbləri səviyyəsində nizamladı, istər ordunun, istərsə də ictimaiyyətin torpaqlarımızın işğaldan azad ediləcəyi inamının nizamını düzənlədi...

Həmin dövrdə Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı Heydər Əliyevin ön xətdə, səngərlərdə əsgər və zabitlərə məsləhətləri, tövsiyələri də mənəvi-psixoloji hazırlığının səviyyəsini nəzərəçarpacaq dərəcədə yüksəltdi.

Tarix elmləri doktoru Mehman Süleymanovun təəbirincə desək, orduya siyasi qüvvələrin nüfuz etməsinin qarşısı birdəfəlik alındı, onun formalaşması, təşkilatlanması və təchizatı qəbul edilmiş qanunlarla formalaşdırıldı. Heydər Əliyev orduda vahid komandanlığın praktiki əsaslarını yaratdı, idarəetmə strukturlarına qarşı məsuliyyəti ciddiləşdirdi, ordu quruculuğunu dövlət quruculuğunun digər sahələri ilə üzvü şəkildə əlaqələndirdi. Ordu dövlətin və şəxsən Heydər Əliyevin gündəlik qayğısı ilə əhatə olundu, ordunun ehtiyacları vaxtlıvaxtında aradan qaldırıldı...

O illərdə ordu-ictimaiyyət münasibətləri də yeni formatda, mənəvi dəyərlər əsasında formalaşmağa başlamışdı. Ulu Öndər deyirdi: "Xalq ordunu daim sevməli, ona kömək etməlidir. Əgər xalq azad, sərbəst yaşamaq istəyirsə, ölkəsini, torpaqlarının toxunulmazlığını arzu edirsə, gərək hər şeydən öncə orduya qayğı göstərsin. Ordunun hörmətini qaldırmaq lazımdır. Hərbi peşə Azərbaycanda ən hörmətli peşələrdən biri olmalıdır. Hər bir vətəndaş Azərbaycan əsgərinə, zabitinə hörmət, ehtiram və qayğı göstərməlidir. Hər bir Azərbaycan vətəndaşı, hər bir gənc orduda xidmət etməyi özünün şərəfli borcu hesab etməlidir". Bu kəlamlar ordu quruculuğu prosesinin ideoloji-xəlqi mahiyyətini tənzimləyirdi.

Silahlı Qüvvələrin Hərbi Akademiyası yaradıldı (20 fevral 1999-cu il), ordumuzu zabit kadrları ilə komplektləşdirən ali hərbi məktəblərin statusu artırıldı (20 avqust 2001-ci il), Silahlı Qüvvələrə yardım fondu yaradıldı (17 avqust 2002-ci il), ulu öndər Heydər Əliyevin dövründə Silahlı Qüvvələrin maddi-texniki təchizatı yaxşılaşdırıldı, ordunun silahlanmasına müasir silah və hərbi texnikalar daxil edildi, hərbçilərin sosial şəraitinin yaxşılaşdırılması istiqamətində konkret tədbirlər görüldü. Bunlar da özlüyündə ordu quruculuğunun dövlət üçün prioritet olmasının təzahürü idi. Zamanında imzalanmış bu fərmanların həyatiliyinin, tarixiliyinin nəticəsidir ki, hazırda Azərbaycanın hərbi təhsil sistemi kifayət qədər güclü maddi-texniki bazaya malikdir, hərbçilərin hərbi təhsildə fəaliyyət yerinə yetirdiyi hərbi vəzifələrə müvafiq olaraq yeni tədris metodları ilə davam etdirilir...

Azərbaycan Ordusunun nizami ordu kimi formalaşması dünyanın aparıcı dövlətlərinin də, NATO-nun da diqqətini çəkdi. Bununla da Azərbaycan Ordusunun NATO-ya inteqrasiya prosesi başladı. Azərbaycan ordu hissələri koalisiya qüvvələrinin tərkibində sülhməramlı missiyalarını Kosovoda, İraqda, Əfqanıstanda uğurla yerinə yetirib, indi də yerinə yetirməkdədir. Bu xidməti NATO komandanlığı da yüksək dəyərləndirib.

2005-ci ilin may ayında təsdiq edilən və icrasına başlanan Fərdi Tərəfdaşlığın Fəaliyyət Proqramı NATO baş katibinə 2004-cü ilin may ayında təqdim edilmişdi, yeni, təqdimatla icra arasında müddətin azlığı Azərbaycan Ordusuna ehtiramın və inamın nəticəsidir.

Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində "NATO - Sülh naminə tərəfdaşlıq" kafedrası, Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzində isə Sülh Naminə Tərəfdaşlıq Milli Təlim Mərkəzi yaradılıb ki, bunlar da özlüyündə beynəlxalq hərbi əməkdaşlıq baxımından həm ordunun nüfuzunun göstəricisidir, həm də ordunun döyüş hazırlığının yüksəldilməsi prosesinə müəyyən təsiri də göstərir.

1997-ci ildən Ali Hərbi Məktəblərdə, Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzində, Hərbi Akademiyada tədris NATO standartlarına uyğun proqramla aparılır. Silahlı Qüvvələrin Hərbi Akademiyasında müharibə ilə əlaqədar dövlət orqanlarında çalışan yüksək vəzifəli şəxslərə də hərbi-strateji, hərbi-iqtisadi və hərbi-siyasi məsələlər tədris olunur.

Azərbaycan Respublikasının Prezidenti seçiləndə İlham Əliyev bildirmişdi ki, böyük tarixi şəxsiyyət Heydər Əliyevin siyasi kursu uğurla davam etdiriləcək, digər sahələr kimi ordu quruculuğu da həmişə diqqətdə saxlanılacaq, mövcud nailiyyətlər bütün parametrlər üzrə daha da inkişaf etdiriləcək, ordu quruculuğu prioritet istiqamətlərdən biri olacaq...

Respublikamızda müdafiə sənayesinin təkmilləşdirilməsi



və ordumuzun müasir silahlarla təmin olunması zərurəti 2005-ci ildə Azərbaycan Respublikası Dövlət Xüsusi Maşınqayırma və Konversiya Komitəsinin ləğv edilməsi, onun bazasında Müdafiə Sənayesi Nazirliyinin yaradılmasıyla nəticələndi. Qısa müddətdə Müdafiə Sənayesi Nazirliyində digər təxirəsalınmaz məsələlərlə bir sırada zəruri sayılan xarici-iqtisadi əlaqələr bərpa edildi, yeni əlaqələr üçün müvafiq işlər aparıldı.

Azərbaycan Respublikasının Silahlı Qüvvələrinin müasir tələblərə cavab verən müdafiə təyinatlı məmulatların və xalq təsərrüfatının maşınqayırma, cihazqayırma, elektrotexnika, rabitə sahələrində istifadə olunan avadanlıq və ehtiyat hissələrinin istehsalını təmin etmək üçün nazirliyin müəssisələrində yeni istehsal sahələri yaradıldı.

Son illərdə müxtəlif miqyaslı, müxtəlif təyinatlı təlimlər, bu sıradan komanda-qərargah təlimləri ordunun döyüş hazırlığını, müəyyən tədbirlər, yeni hərbi hissələrin inşası, yenidən qurulması, şəxsi heyətin sosial-məişət şəraitinin yaxşılaşdırılması və s. mənəvi-psixoloji hazırlığı yüksəldir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin qürurla dediyi "Azərbaycan güclü dövlətdir və onun güclü ordusu vardır" kəlamı hərbçilərin mənəvi-psixoloji hazırlığında əlavə stimul olmuşdur. 2018-ci ildə Azərbaycan Ordusunun və Bakının işğaldan azad edilməsinin 100 illiyinə həsr olunmuş paradlar Azərbaycan Ordusunun qadirliyinin paradı kimi izlənildi...

Azərbaycan Ordusu dünyanın ən güclü orduları sırasındadır və nizami, güclü bir ordu kimi bütün parametrlər üzrə daha dinamik inkişaf mərhələsindədir. Ordunun müdafiə qüdrətinin, döyüş və mənəvi-psixoloji hazırlığının yüksəldilməsi, maddi-texniki təchizatının yaxşılaşdırılması, hərbi qulluqçuların sosial müdafiəsi dövlət üçün prioritetdir...

Azərbaycan Ordusunun şəxsi heyətinin ən güclü silahlarından biri də vətənpərvərlikdir.

Azərbaycan Ordusu tarixin bağrından qopan ordudur.

Azərbaycan Ordusunun şəxsi heyəti Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin döyüş əmrini qələbəylə tamamlamağa, torpaqlarımızı işğaldan azad etməyə qadirdir...

**Rəşid HÜSEYNOV,**
**"Azərbaycan Ordusu"**

AZƏRBAYCAN ORDUSU

# Azərbaycanın hərbçilərinin Moskvadakı paradda iştirakı xalqımızın Qələbədəki roluna ehtiramın göstəricisidir

*Azərbaycan hərbçiləri faşizm üzərində Qələbənin 75-ci ildönümü münasibətilə Moskvada təşkil olunan paradda iştirak etdilər. Bu paradda onlar bütün dünyaya Azərbaycan Ordusunun qüdrətini nümayiş etdirdilər. Hərbçilərimiz paradda Azərbaycan istehsalı olan silahlarla keçid etdilər. Bu, hərbi sənayemizin də böyük uğuru kimi dəyərləndirilməlidir.*



AZƏRTAC xəbər verir ki, bunu Azərbaycan Respublikası Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının sədr müavini, ehtiyatda olan polkovnik Cəlil Xəlilov hərbçilərimizin Böyük Vətən müharibəsində Qələbənin 75 illiyi münasibətilə Moskvada keçirilən hərbi paradda iştirakından danışarkən qeyd edib.

C.Xəlilov bildirib ki, hərbi paradda 14 minə yaxın hərbçi iştirak edib. Rusiya hərbi qulluqçuları ilə yanaşı, meydanda 13 ölkənin hərbçiləri addımlayıblar. İlk olaraq Qızıl meydana Azərbaycan hərbçiləri çıxıblar. Azərbaycan Silahlı Qüvvələrinin 75 hərbçidən ibarət dəstəsi hərbi marşla Qızıl meydanda tribuna önündən keçiblər. Paradın aparıcısı xatırladıb ki, Böyük Vətən müharibəsində 600 mindən çox azərbaycanlı döyüşüb.

Respublika Veteranlar Təşkilatının sədr müavini vurğulayıb ki, Qələbə paradında hərbçilərimizin iştirakı xalqımızın bu tarixi zəfərdəki roluna yüksək ehtiramın göstəricisidir. "Xalqımız faşizm üzərində Qələbənin qazanılmasında böyük fədakarlıqlar göstərib. Döyüşlərdə iştirak edənlərin 300 mindən çoxu qəhrəmanlıqla həlak olub. Bu Qələbədə Azərbaycan nefti həlledici rol oynayıb. Böyük Vətən müharibəsində şərəfli döyüş yolu keçmiş Azərbaycan övladlarının şücaətləri hər zaman hörmətlə anılıb."

C.Xəlilov əlavə edib ki, ümumiyyətlə, Azərbaycan sovet dövründə də ordu quruculuğu prosesinə töhfəsini verib. 1941-1945-ci illərdə faşizmə qarşı mübarizədə azərbaycanlı hərbçilər böyük rəşadətlər, azərbaycanlılardan ibarət beş milli diviziya bu müharibədə böyük qəhrəmanlıqlar göstərib. O dövrdə hərbçilərimiz göstərdikləri igidliklərə görə həm SSRİ-nin, həm də faşizmə qarşı mübarizədə iştirak edən digər dövlətlərin orden və medallarına layiq görülüblər. Heydər Əliyevin hakimiyyətdə olduğu illərdə sovet ordusunda azərbaycanlıların rolu artıb. Azərbaycan gənclərinin SSRİ-də bir sıra ali hərbi məktəblərə müsabiqəsiz qəbul edilməsinə nail olunub. Cəmşid Naxçıvanski adına Hərbi Liseyin yaradılması, daha sonra bu təhsil ocağının məzunlarının SSRİ-nin ali hərbi məktəblərinə göndərilib, azərbaycanlıların sovet ali hərbi məktəblərə qəbulu ilə bağlı çətinlikləri ortadan qaldırılıb. Ümummilli lider Heydər Əliyevin 1993-cü ildə Azərbaycanda hakimiyyətə qayıdışı ordu quruculuğu prosesinə də böyük təkan verib. Bu, dahi şəxsiyyət Heydər Əliyevin xalqımız və ordumuz qarşısındakı tarixi və çoxsaylı xidmətlərindən biri olub. Ümummilli lider Heydər Əliyev 1993-cü ildə hakimiyyətə qayıdandan sonra müharibə veteranlarının hüquqlarını da bərpa edib.

"Hazırda Azərbaycan Ordusu dünyanın ən qüdrətli orduları sırasında yer tutub. Ordumuz müasir texnika, silah-sursatla təmin edilib. Ölkəmizdə müasir hərbi hissələr və şəhərciklər yaradılıb. Silahlı Qüvvələrimizin əsgərləri dünyanın bir sıra ölkələrində sülhməramlı missiyasını həyata keçirməkdədir.

Qələbənin 75 illiyi ilə əlaqədar Respublika Veteranlar Təşkilatı İkinci Dünya müharibəsində azərbaycanlıların göstərdiyi qəhrəmanlıqlarla bağlı təbliğat-maarifləndirmə işləri aparır. Təşkilat Qələbənin qazanılmasında azərbaycanlıların rolu, tarixi saxtalaşdırmalara qarşı mübarizə istiqamətində də ciddi işlər görür.

Böyük Vətən müharibəsi bizim şanlı tariximizdir. O dəhşətli müharibədə misilsiz şücaətlər göstərən qəhrəman oğul və qızlarımız bu gün də hörmətlə xatırlanır", - deyə Cəlil Xəlilov vurğulayıb.



# "Bu parad da Azərbaycan Ordusunun hansı səviyyədə nizami ordu olduğunu təsdiqlədi"

*Böyük Vətən müharibəsində Qələbənin 75 illiyi münasibətilə iyunun 24-də Moskvada hərbi parad keçirilib. Qələbə paradının vaxtı koronavirus pandemiyasına görə mayın 9-dan iyunun 24-nə dəyişilmişdi. Xatırladaq ki, 1945-ci ildə Böyük Vətən müharibəsində Qələbədən sonrakı məşhur parad da iyunun 24-də keçirilmişdi.*

Paradı Rusiya Silahlı Qüvvələrinin Ali Baş Komandanı Vladimir Putin, fəxri qonaqlar və veteranlar izləyib. Tədbirdə Rusiya Federasiyasının Müdafiə naziri Sergey Şoyqunun dəvəti ilə qonaq qismində Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənov da iştirak edib.

Hərbi paradda 14 minə yaxın hərbçi, o cümlədən Rusiya, Azərbaycan, Belarus, Hindistan, Qazaxıstan, Qırğızıstan, Çin, Moldova, Monqolustan, Serbiya, Tacikistan, Türkmənistan, Özbəkistan hərbi qulluqçuları iştirak ediblər. Qızıl meydanın üzərindən 75 təyyarə və helikopter uçub, tribuna önündən 200 müasir və müharibə dövrünə aid 18 hərbi texnika keçib.

Azərbaycan Ordusunun 75 hərbçisindən ibarət parad heyəti hərbi marşla tribuna önündən keçib. Paradın aparıcısı xatırladıb ki, Böyük Vətən müharibəsi cəbhələrində 600 mindən çox azərbaycanlı döyüşüb. Təntənəli mərasimdə ölkəmizi layiqincə təmsil edən Azərbaycan Ordusunun parad heyəti rəsmi səfərini başa vuraraq Azərbaycana qayıdıb. Heyətin rəhbəri, Müdafiə Nazirliyi Fəxri Qarovulun rəisi mayor Samiq Məmmədov yubiley paradından söz açmazdan əvvəl Böyük Vətən müharibəsində xalqımızın iştirakından, göstərdiyi qəhrəmanlıq nümunəsindən danışıb.

- Böyük Vətən müharibəsinin ağrı-acılarını xalqımız döyüşən orduda da, arxa cəbhədə də çəkib. Azərbaycanlılar ön xətdə, döyüşlərdə də, arxa cəbhədə də tarixi əzmkarlıq göstəriblər. Bəşəriyyət üçün dəhşətli, faciəli fəlakətlər dövrü kimi yadda qalan İkinci Dünya müharibəsi qələbə ilə başa çatdı. Azərbaycanın bu tarixi Qələbədə xidməti bütün dünyada etiraf edilib. Xalqımızın igid oğulları iki dəfə Sovet İttifaqı Qəhrəmanı Həzi Aslanovun, Sovet İttifaqı Qəhrəmanları İsrafil Məmmədovun, Aslan Vəzirovun, Adil Quliyevin, Ziya Bünyadovun, Gəray Əsədovun, Məlik Məhərrəmovun, Mehdi Hüseynzadənin, generallar Mahmud Əbilovun, Akim Abbasovun, Tərlan Əliyarbəyovun, Hacıbaba Zeynalovun və başqalarının istər döyüşən orduda, istərsə də partizan hərəkatında iştirakı, qəhrəmanlığı, qətiyyəti, qorxmazlığı tarixdir və bu tarix zamanzaman yaşayacaq, yaşadılacaq. Bu tarix böyük igidlik olmaqla əsl örnək vətəndaşlıq kimi yaddaşlardadır.



İkinci Dünya müharibəsində Qələbənin qazanılmasında Bakı neftinin də əvəzsiz rol oynadığını vurğulayan mayor Samiq Məmmədov qeyd edib ki, o illərdə hər beş təyyarədən dördü, hər beş tankdan dördü, hər beş avtomobildən dördü Bakıdan göndərilən yanacaqla işləyib. Bir sözlə, canlı qüvvəmizlə bərabər neftimizin də faşizm üzərində qələbənin əsas amillərindən biri olduğunu bildirən zabit belə bir təntənəli və əhəmiyyətli parada iştirakçı olmağın qürurundan danışıb.

- Səmimi deyim ki, o hissləri sözlə ifadə etmək çox çətindir. Çünki ordumuzu, eyni zamanda, respublikamızı təmsil etmək böyük şərəf və yüksək qürurverici hisslərdir. On üç ölkənin hərbçilərinin iştirak etdiyi paradda Qafqazın ən güclü ordusunun nümayəndəsi kimi çıxış etmək ikiqat qürurludur. Bu qüruru və sevinci heyətimizin hər bir üzvü yaşayırdı. Hər biri yüksək hazırlıq, bacarıq və məsuliyyət nümayiş etdirdi. Hələ parada hazırlıq dövründə məşqlər edərkən keçidimiz parada komandanlıq edənlər tərəfindən yüksək qiymətləndirilir, digər ölkələrə nümunə göstərilirdi. Parad günü də keçidimiz çox möhtəşəm alındı. Mərasimi tribunadan fəxri qonaq qismində izləyən dövlət rəsmiləri arasında Müdafiə nazirimiz general-polkovnik Zakir Həsənovun olması bizi daha da ruhlandırdı. Bir sözlə, Azərbaycan Ordusunun hansı səviyyədə nizami ordu olduğunu yüksək səviyyədə nümayiş etdirdik.

Göstərilən etimada görə yuxarı komandanlığa təşəkkürünü bildirən mayor Samiq Məmmədov daha sonra deyib:

- Ali Baş Komandan İlham Əliyevin ordumuza göstərdiyi diqqət və qayğısı nəticəsində Azərbaycan Ordusu dünyanın ən güclü orduları sırasındadır. Ordumuzun müasir silah və texnikası, şəxsi heyətin döyüş qabiliyyəti, mənəvi-psixoloji hazırlığı ən yüksək səviyyədədir. Bir zabit, bir vətəndaş kimi əminəm ki, ordumuz Ali Baş Komandanın döyüş əmrini qələbəylə tamamlayacaqdır.

**Baş leytenant**
**Mahmud MÖHBALIYEV,**
**"Azərbaycan Ordusu"**

Tibb xidməti

# Hərbi tibb daha dinamik inkişaf mərhələsindədir

*Son illər ölkəmizin rayonlarında və şəhərlərində tibb mərkəzləri, xəstəxanalar əsaslı təmir edilir. Ölkəmizdə hərbi tibb sahəsində də uğurlar əldə edilib.*







Ümummilli lider Heydər Əliyevin Gülhanə Hərbi Tibb Akademiyasında dediyi "Bizim orduda da, bizim ölkədə də bu cür əzəmətli hərbi tibb müəssisəsi olacaqdır" kəlamını xatırlayırıq. Dahi şəxsiyyətin uzaqgörənliklə ifadə etdiyi fikirlər bu gün reallıqdır.

Bu gün Ali Baş Komandan İlham Əliyevin diqqət və qayğısının nəticəsi olaraq Silahlı Qüvvələrin Baş Klinik Hospitalının maddi-texniki bazası, müalicə-diaqnostika imkanları, kadr potensialı dəfələrlə artıb, Ümummilli Liderimizin arzularına uyğun olaraq hospital regionun ən böyük hərbi tibb müəssisəsinə çevrilib.

Səkkiz müalicə və digər yardımçı korpuslardan ibarət olan Silahlı Qüvvələrin Baş Klinik Hospitalında 6 şöbə, 50-dək müalicə-diaqnostika bölməsi fəaliyyət göstərir. Bölmələr tibb heyəti ilə komplektləşdirilib, beynəlxalq standartlara cavab verən tibbi cihaz və avadanlıqlarla təchiz edilib. Hospitalın 4 blokunun 10 əməliyyat otağında eyni zamanda 19 cərrahi əməliyyat aparmaq mümkündür. Ürək-damar şöbəsində, göz xəstəlikləri bölməsində quraşdırılan avadanlıq da istənilən mürəkkəb əməliyyatların aparılmasına imkan verir. Video-müşahidə otağında olan monitorlar vasitəsilə əməliyyat zallarından görüntülər nümayiş etdirilir, xəstənin yaxınları, eləcə də tibb sahəsində təhsil alanlar bu əməliyyatları istər birbaşa, istərsə də sonradan izləyə bilirlər.

Hərbi qulluqçuların ailə üzvlərinə və Azərbaycan Ordusunda xidmət edən qadın hərbi qulluqçulara akuşer-ginekoloji xidmətin göstərilməsi məqsədilə hospitalda müvafiq bölmə də fəaliyyət göstərir. Yeni tikilmiş və əsaslı təmir edilmiş müalicə korpuslarının ən müasir avadanlıqlarla təchiz edilməsi bu sahəyə göstərilən dövlət qayğısının ən bariz nümunəsidir.

İstər Qarabağ müharibəsi zamanı, istər atəşkəs dövründə, istərsə də 2016-cı ilin Aprel döyüşləri zamanı hospitalın həkim və orta tibb heyəti öz vəzifə borcunu layiqincə yerinə yetirib. Bu gün fəxrlə qeyd etmək olar ki, hospitalda dünyada ilk dəfə və analoqu olmayan cərrahi əməliyyatlar da həyata keçirilib.

Cəbhəboyu zonada inşa olunan 150 çarpayılıq 6 hektar ərazini əhatə edən hərbi hospital istifadəyə verilib və orada ən müasir tibbi avadanlıqlarla təmin edilib. Hospitalın ərazisində qərargah binası, birmərtəbəli patoloji anatomiya, daimi oksigen təminatı üçün oksigen və transformator binaları tikilib və lazım olan digər infrastruktur obyektlər inşa edilib.

Hərbi hospitalda ikimərtəbəli diaqnostika mərkəzi də inşa olunub. Mərkəzdə qan bankı, laboratoriyalar, müalicə palataları, əməliyyat otaqları, doqquz nəfərlik reanimasiya palatası, cərrahiyyə və əməliyyat blokları, tibbi ləvazimatlar anbarı, qəbul şöbəsi, stomatologiya, oftalmologiya, ginekologiya, lor, terapiya, rentgen və kompüter tomoqrafiyası, endoskopiya, dermatologiya, efferent bölmələri, eləcə də digər lazımi tibbi strukturlar yaradılıb. Almaniya, ABŞ, Yaponiyada və digər qabaqcıl ölkələrdə istehsal edilən avadanlıqlarla təchiz edilən palatalarda hərbi qulluqçulara yüksək səviyyədə tibbi xidmət göstərilməsi, eləcə də onların müalicəsi üçün hər cür şərait mövcuddur. Həmçinin təxirəsalınmaz tibbi yardım göstərilməsi məqsədilə 2 reanimobildən ibarət qrup yaradılıb və təxliyə üçün hospitalın ərazisində helikopter meydançası da salınıb.

Mobil Səhra Cərrahiyyə Hospitalı ilk gündən indiyədək döyüş bölgələrində təyinatı üzrə fəaliyyət göstərir. Səyyar Hospital 2016-cı ilin Aprel döyüşlərində praktiki olaraq sınaqdan keçirilib. Tibbin son nailiyyətlərini özündə cəmləşdirən hospital açıldıqdan bir saat sonra xəstələri qəbul edə, 4-6 saatdan sonra isə öz funksiyasını tam yerinə yetirməyə hazır ola bilir. Gündə 150-dək xəstəyə tibbi xidmət göstərmək imkanı olan səyyar hospital yaralıların və xəstələrin qəbulu, qeydiyyatı, çeşidləmə, idarəetmə və diaqnostika çadırlarından ibarətdir. Eyni zamanda, hospitalın 2 əməliyyat, 2 intensiv terapiya bloku və hər birində 8 çarpayı olan 6 müalicə çadırı var. Hospitalın özəlliyi onun konteyner və çadırlarının qısa müddətə hazır vəziyyətə gətirilməsindədir.

Konteynerləri 5-7, çadırları isə 7-9 dəqiqəyə hazırlamaq mümkündür. Bu isə hospitalın daşınma prosesini asanlaşdırır. Səyyar hospitalda dünyanın ən müasir tibb mərkəzlərində olduğu kimi, bütün tibbi strukturların mobil versiyası mövcuddur. Mobil Səhra Cərrahiyyə Hospitalı tam həcmdə fəaliyyəti üçün nəzərdə tutulan 25-i həkim və digər hərbi qulluqçular olmaqla, ümumilikdə 88 nəfərlə tam komplektləşdirilib.

Qazanılan müsbət nümunələrdən biri də həyata keçirilən effektiv tədbirlər sayəsində keçən dövrlərlə müqayisədə son illər kəskin respirator xəstəliklər, pnevmoniya, mövsümi və digər infeksion xəstəliklərə yoluxma halları kəskin şəkildə azalıb. Müdafiə Nazirliyi Tibb Baş İdarəsinin Səhiyyə Nazirliyi, Nazirlər Kabineti yanında yaradılmış Operativ Qərargahla və "TƏBİB" ilə koordinasiyalı fəaliyyəti nəticəsində hərbi qulluqçuların infeksion xəstəliklərə, o cümlədən koronavirusa yoluxması riskinin minimuma endirilməsi də məhz hərbi tibbimizin son illər nail olduğu inkişafın göstəricisidir.

Nazirlər Kabinetinin müvafiq qərarlarının icrasını təmin etmək və xüsusi karantin rejimimin tələblərinə hərbi qulluqçuların düzgün, dəqiq əməl etməsi məqsədilə Müdafiə naziri bütün vəzifəli şəxslər və hərbi tibb müəssisələri qarşısında tapşırıqlar qoyub. Bu istiqamətdə dövlətimizin başçısının tapşırığına əsasən həyata keçirilən qabaqlayıcı tədbirlərə hərbi təbabətdə də praktiki işlər görüldü. Pandemiya dövründə şəxsi heyətin, eləcə də mülki əməkdaşlar və hərbi qulluqçuların ailə üzvlərinin təhlükəsizliyini tam qorumaq, mövsümi xəstəliklərə, o cümlədən koronavirus infeksiyasına yoluxmanın qarşısının alınması məqsədilə hərbi hissələrdə ciddi qabaqlayıcı tədbirlərin həyata keçirilməsi davam edir. Azərbaycan Ordusunda bütün təhlükəsizlik tədbirlərinə hələ fevral ayından başlanılıb. Hərbi hissələr xüsusi məhlullar vasitəsilə davamlı olaraq dezinfeksiya olunur.

Hərbi hissə, idarə və təşkilatlarda, həmçinin xüsusi təyinatlı təhsil müəssisələrində epidemioloji vəziyyət nəzarətdə saxlanılır. Müdafiə nazirinin tapşırığına əsasən ordumuzun bütün qurumları fərdi qoruyucu vasitələrlə təmin edilib və onların ehtiyatı yaradılıb, hərbi həkimlər gücləndirilmiş iş rejiminə keçirilib, tibbi nəzarət tədbirləri icra edilir. Görülən qabaqlayıcı tədbirlərin nəticəsidir ki, şəxsi heyətin sağlamlığı ilə bağlı heç bir narahatlığa əsas yoxdur, epidemioloji vəziyyət tam nəzarət altındadır.

Hərbi tibbin nailiyyətlərindən biri də mülki vətəndaşlarımızın hərbi hospitallara axın etməsi və sağlamlıqlarını hərbi tibbimizə, hərbi həkimlərə etibar etməsidir. Heç kimə sirr deyil ki, nəinki hərbi qulluqçular və onların ailə üzvləri, həmçinin mülki vətəndaşlarımız da hərbi həkimlərimizin xidmətindən geniş istifadə edirlər.

Azərbaycan Tibb Universitetinin nəzdində fəaliyyət göstərən Hərbi Tibb Fakültəsində "Hərbi həkim işi" və "Hərbi feldşer işi" ixtisasları üzrə təhsil həyata keçirilir.

Müdafiə Nazirliyinin və Azərbaycan Tibb Universiteti rəhbərliyinin iştirakı ilə Silahlı Qüvvələrin Baş Klinik Hospitalının ərazisində inşa edilən Hərbi Tibb Fakültəsinin yeni tədris binasının açılışı oldu. Tibb təhsilinin yüksək səviyyədə təşkili üçün avadanlıq və bütün kommunikasiya sistemləri ilə təchiz edilmiş ikimərtəbəli yeni bina tibbin bütün yeniliklərini özündə ehtiva edir. Bu gün bu təhsil ocağında tibb xidmətinin təşkili və taktikası, eləcə də hərbi tibbi profilaktika kafedralarının yerləşdiyi korpusda nəzəri və praktiki imkanları müasir tələblərə cavab verən müxtəlif tədris sinifləri, simulyasiya kabinetləri, laboratoriya otaqları və digər yardımçı bölmələrdə gələcəyin hərbi həkimləri və feldşerlər lazımi biliklərə yiyələnirlər.

Açılış mərasimində çıxış edən Müdafiə naziri general-polkovnik Zakir Həsənov Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin diqqət və qayğısı nəticəsində Silahlı Qüvvələrin bütün sahələrində olduğu kimi, hərbi tibb sahəsinin də sürətlə inkişaf etdiyini vurğulayıb, hərbi tibb mütəxəssislərinin peşəkarlıqlarını daim artırdıqlarını, dərin biliklərə və geniş təcrübəyə malik olduqlarını da qeyd edib.

Hərbi həkimlərimiz Türkiyə, Rusiya, Almaniya, ABŞ və digər qabaqcıl ölkələrdə təhsilə göndərilir, elmi konfranslarda iştirak edir, dünya şöhrətli həkimlərlə birlikdə ən mürəkkəb cərrahi əməliyyatlar aparırlar.

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev dəfələrlə deyib ki, ölkəmizdə ordu quruculuğu prioritet məsələdir və bu istiqamətdə nə lazımdırsa həyata keçiriləcək. Təbii ki, bu tədbirlər ölkəmizdə hərbi tibb sahəsini inkişaf etdirir.

Azərbaycan Ordusunun döyüş hazırlığının artırılması, şəxsi heyətin sosial-məişət şəraitinin yaxşılaşdırılması, hərbi qulluqçularımız və onların ailə üzvlərinin sağlamlığının qorunması, yeni hərbi obyektlərin inşası, eləcə də əsaslı təmir edilərək müasir tələblərə uyğunlaşdırılması istiqamətində həyata keçirilən tədbirlər inamla davam etdirilir və bu işlər hərbi tibb müəssisələrində də parlaq əksini tapır.

**İsa İSMAYILOV,**
**hərbi jurnalist**

# Azərbaycan Ordusunun şəxsi heyəti ilə keçirilən ictimai-siyasi hazırlıq dərsi

## (İctimai-siyasi hazırlıq dərsinin qrup rəhbərinə dərsə hazırlaşmaq üçün kömək)

**Suallar:**
**1. Şüurlu hərbi intizam ordunun həyat və fəaliyyətinin əsas prinsipidir.**
**2. Möhkəm hərbi intizam döyüşdə müvəffəqiyyətin əsas şərtidir.**

**Mövzu:** Şüurlu hərbi intizam ordunun həyat və fəaliyyətinin, döyüşdə isə müvəffəqiyyətin əsas prinsipi və şərtidir.

### *Şüurlu hərbi intizam ordunun həyat və fəaliyyətinin əsas prinsipidir*

Azərbaycan Ordusu Azərbaycan Respublikasının suverenliyinin, ərazi bütövlüyünün, onun toxunulmazlığının və mənafeyinin silahlı müdafiəsinə, dövlətə silahlı hücumun qarşısının alınmasına, təcavüz olarsa, onun dəf edilməsinə xidmət edir. Bu müqəddəs vəzifələri yerinə yetirmək üçün ordumuz daim döyüşə hazır vəziyyətdə olmalıdır.

Müasir dövrdə hərbi intizamın rolu əvəzedilməzdir. Ordu Azərbaycan cəmiyyətinin ayrılmaz hissəsidir. Ümumdövlət intizamı kimi hərbi intizam da eyni hüquqi və mənəvi prinsiplərə əsaslanır. Hərbi qulluqçular bütün Azərbaycan vətəndaşları kimi Azərbaycan Respublikasının qanunlarının tələblərinə şüurlu surətdə ciddi riayət etməlidirlər. Şüurlu hərbi intizam, yüksək döyüş hazırlığı və döyüş qabiliyyəti ordunun əsas şərtidir.

Şüurlu hərbi intizamın mahiyyəti hərbi qulluqçunun təyin edilmiş qayda-qanunu və davranış qaydalarını bilməsindən, onların təsbit edilmiş qaydalarına davamlı əməl edilməsinin vacibliyini anlamasından ibarətdir. O, davranış qaydalarının təsbit edilməsi, insanın davranışının və hərəkətlərin təyin edilməsi ilə adət halını alarsa, intizamın şəxsiyyət dəyərinin formalaşması və inkişafı haqqında danışmaq olar.

İntizamlılıq hərbi qulluqçunun vacib mənəvi-psixoloji və döyüş keyfiyyətidir. İntizamlılıq hərbi qulluqçuda komandir və rəislərin əmr və sərəncamlarını dəqiq və vaxtında yerinə yetirməsi üzrə yüksək icraçılıq qabiliyyəti göstərməsini, Hərbi andın və nizamnamələrin tələblərinə daima riayət etməsini, öz davranış və hərəkətlərini hər vəziyyətdə idarə edə biləcək bacarığının olmasını ifadə edir.

Bununla yanaşı, orduda Hərbi and içən hərbi qulluqçular Vətənə sadiq olmaqla yanaşı, məhrumiyyətlərə və çətinliklərə dözməyə, intizamlı olmağa da and içirlər və andı pozarlarsa, Azərbaycan Respublikasının qanunlarına əsasən tam ciddiyyəti ilə məsuliyyət daşımağa hazır olduqlarını dərk edirlər. Azərbaycan Ordusunda hərbi intizam İntizam Nizamnaməsi ilə tənzimlənir.

Azərbaycan Ordusunda hərbi intizam hərbi qulluqçuların yüksək şüurluluğuna və vətənpərvərlik borclarını dərindən dərk etmələrinə, xalqımızın beynəlmiləlçilik ənənələrinə sadiq olmalarına və Vətənə sonsuz məhəbbət bəsləmələrinə və hərbi intizamın tələblərinə şüurlu surətdə tabe olmalarına əsaslanır.

İntizam Nizamnaməsinin 2-ci maddəsi də hər bir hərbi qulluqçunun hərbi borcunu və öz Vətəni Azərbaycan Respublikasının müdafiəsi üçün şəxsi məsuliyyət daşımasını şüurlu surətdə dərk etməsini tələb edir.

Azərbaycan Respublikasının Silahlı Qüvvələrinin İntizam Nizamnaməsində hərbi intizam anlayışı aşağıdakı kimi müəyyən edilir: "Hərbi intizam - bütün hərbi qulluqçuların Azərbaycan Respublikası qanunlarında və hərbi nizamnamələrində müəyyən olunmuş qaydalara ciddi riayət etməsi deməkdir."

Hərbi intizam, birinci növbədə, hüquqi kateqoriyadır. Hərbi qulluqçular dövlət tərəfindən təyin edilmiş qayda və qanunları fərmanlar, qərarlar, nizamnamələr və əmrlər vasitəsilə yerinə yetirirlər. Bu istiqamətdə alternativsiz, vaxtında və sözsüz, dəqiq və ciddi qayda və qanunlara riayət edilmə normaları təyin olunmuşdur. Hərbi intizam pozuntuları hüquq pozuntuları kateqoriyasına, nizamnamə qaydaları isə hüquq qaydasına aiddir.

Hərbi intizamın məcburiliyi hamı üçün məcburi tədbirləri şərtləndirir, hər şəraitdə təyin edilmiş qayda və qanunlara riayət olunmanın qarşısını almağı tələb edir.

İntizamın tərkibinə daxil olan, bir sıra əxlaqi prinsiplərə qanuni qüvvə verən hərbi - hüquqi aktlar hərbi intizamın tələblərini formalaşdırır. Hərbi qulluqçu şəxsiyyətinin keyfiyyət strukturunu təyin edən vacib komponentlərdən biri onun vətənpərvərlik şüuruna malik olmaqla Vətənin taleyinə biganə ola bilməməsidir. Bu, əsgərin yüksək icraçılığının və intizamlılığının əsasıdır. Əsgər şəxsiyyətinin keyfiyyət strukturuna daxil olan əxlaqi məslək, daxili saflıq, düzlük, sədaqət intizamla sıx bağlıdır.

Hərbi intizam hər bir hərbi qulluqçudan aşağıda göstərilənləri tələb edir:

- Azərbaycan Respublikasının Konstitusiyasına və qanunlarına ciddi riayət etməyi, Hərbi andın və hərbi nizamnamələrin tələblərini dəqiq yerinə yetirməyi, komandirlərin (rəislərin) əmr və sərəncamlarına sözsüz tabe olmağı;
- hərbi xidmətin bütün çətinlik və məhrumiyyətlərinə mətinliklə tab gətirməyi, hərbi borcunu yerinə yetirərkən öz qanını və həyatını belə əsirgəməməyi;
- dövlət sirlərini möhkəm saxlamağı;
- namuslu və dürüst olmağı, hərb işini vicdanla öyrənməyi, ona tapşırılan silahı, döyüş texnikasını və digər texnikanı, hərbi əmlakı və xalq əmlakını hər vasitə ilə qorumağı;
- komandirlərə (rəislərə) və böyüklərə hörmət etməyi, əsgəri nəzakət və salamvermə qaydalarına əməl etməyi;
- hərbi hissədən kənarda özünü ləyaqətli və namuslu aparmağı, ictimai asayişin özü və başqaları tərəfindən pozulmasına yol verməməyi, vətəndaşların şərəf və ləyaqətinin qorunmasına hərtərəfli səy göstərməyi.

Yüksək hərbi intizama nail olmaq üçün:

- hərbi qulluqçularda yüksək mənəvi və döyüş keyfiyyətləri və komandirlərə (rəislərə) şüurlu surətdə tabe olmaq hisslərini tərbiyə etməklə;
- hissədə (bölmədə) nizamnamə qaydalarına ciddi riayət etməklə;
- komandirlərin (rəislərin) öz tabeliyində olanlara gündəlik tələbkarlığı, onların şəxsi həyatına hörmət etməsi, hərbi qulluqçulara daim qayğı göstərməsi, inandırma və məcburiyyət tədbirlərini bacarıqla və düzgün əlaqələndirib tətbiq etməsi ilə nail olmaq mümkündür.

Azərbaycan Respublikasının Silahlı Qüvvələrinin hərbi qulluqçusu öz Vətəninin - Azərbaycan Respublikasının müdafiəçisidir. O, öz Vətəninin müdafiəsi üçün şəxsi məsuliyyət daşıyır və borcludur:

- Azərbaycanın mənafeyini qorusun;
- onun nüfuzunun və qüdrətinin möhkəmlənməsinə səy göstərsin;
- Azərbaycan Respublikası Konstitusiyasına, qanunlarına və Hərbi anda müqəddəs və sarsılmaz surətdə riayət etsin;
- intizamlı, vicdanlı, dürüst və cəsarətli olsun;
- komandirlərə (rəislərə) sözsüz tabe olsun və döyüşdə onları müdafiə etsin.

### *Möhkəm hərbi intizam döyüşdə müvəffəqiyyətin əsas şərtidir*

Döyüş - müharibə edən tərəflərin birləşmələrinin, hissə və bölmələrinin mütəşəkkil silahlı toqquşmasıdır. O, şəxsi heyətin mənəvi və fiziki qüvvələrinin hərtərəfli sınağıdır. Onun uğuru əsasən döyüşü aparmaq üçün insanların cəsarətindən, dözümlüyündən, mənəvi keyfiyyətlərindən, hazırlıq səviyyəsindən və texnikanın hazırlığından asılıdır.

Döyüşdə müvəffəqiyyətin qazanılmasında şəxsi heyətin şüurlu hərbi intizamı, komandirlərin əmrlərinin dəqiq və sözsüz yerinə yetirilməsi, intizamsızlığın qarşısının qəti alınması, yerli əhaliyə qarşı nalayiq hərəkətlərə və qarətçilik hallarına yol verilməməsi böyük əhəmiyyətə malikdir.

Müasir şəraitdə şəxsi heyətin intizamı və mütəşəkkilliyi aşağıdakılarla bağlıdır:

- hərb işinin inkişaf etməsi, hərbi hissələrin müasir silahlarla və döyüş texnikası ilə təchiz olunması, döyüş aparma üsullarının kökündən dəyişməsi ilə;
- müasir silahların bir çox növlərinin kollektiv surətdə istifadə olunması, həmin silahların müvəffəqiyyətli tətbiqi ekipaj və heyət üzvlərinin, müxtəlif ixtisaslı hərbi qulluqçuların dəqiq, birgə və bacarıqlı hərəkətlərindən asıllığı;
- hərbi hissələrin müasir silah növləri ilə təchiz edilməsi, bu silahlardan istifadə etmə üsul və qaydalarının öyrənilməsində mövcud olan çətinliklərlə bağlı gərginliyin artması, müasir müharibədə şəxsi heyətin mənəvi-psixoloji hazırlığının artırılmasının zəruriliyi ilə.

Azərbaycan Respublikası müstəqilliyini bərpa etdikdən sonra Ermənistanın silahlı qüvvələri tərəfindən təcavüzə məruz qaldı. 1991-1993-cü illərdə Azərbaycan Respublikasının ərazisinin bir hissəsi erməni silahlı birləşmələri tərəfindən işğal olundu.

Həmin illərdə ictimai-siyasi vəziyyət qeyri-sabit idi. Ölkədaxili çəkişmələr, respublika rəhbərliyinin dövlət idarəetmə sahəsində səriştəsizliyi bütün sahələrdə olduğu kimi, ordu quruculuğunda da öz mənfi təsirini göstərirdi. Vahid komandanlığın olmaması pərakəndə hissə və birləşmələrin həyat və fəaliyyətini tənzimləməyə və onlara nəzarət etməyə imkan vermirdi. Bu isə hərbi hissələrdə nizamnamə qaydalarının kobud surətdə pozulmasına, şəxsi heyətin hüquqlarının tapdalanmasına, fərariliyin kəskin surətdə artmasına, döyüş meydanının özbaşına tərk edilməsinə, komandirlərin əmrlərinə və göstərişlərinə tabe olmamağa gətirib çıxarırdı. Belə hərbi hissələrin bütün döyüş əməliyyatları uğursuzluqla nəticələnirdi.

Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev 1993-cü ilin iyun ayında xalqın təkidli xahişilə hakimiyyətə qayıtdıqdan sonra ordu quruculuğunu öz xüsusi diqqətinə götürdü və qısa bir müddətdə ordumuzun yüksək döyüş qabiliyyətli olması üçün təsirli tədbirlər gördü. 1993-cü ilin axırlarında, 1994-cü ilin yanvar-may aylarında Azərbaycan Ordusunun apardığı döyüş əməliyyatlarının uğurlu olmasında vahid komandanlığın, möhkəm şüurlu hərbi intizamın böyük rolu vardır.

Ulu Öndər 1993-2003-cü illərdə ordu quruculuğu ilə bağlı bütün çıxışlarında, Azərbaycan Ordusunun hissə və birləşmələrində şəxsi heyətlə bütün görüşlərində möhkəm hərbi intizamın əhəmiyyətini xüsusi vurğulamışdır. Belə görüşlərdən birində onun dediyi "Orduda, hər bir hərbi hissədə yuxarıdan aşağıyadək qanun-qayda, nizam-intizam, yüksək tələbkarlıq mövcud olmalıdır" sözləri bu gün də bütün hərbi qulluqçuların Vətən, xalq və dövlət qarşısında məsuliyyətlərini çox dəqiq ifadə edir və onları intizamlı olmağa çağırır.

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin yanında 2019-cu ilin yekunlarına həsr olunmuş müşavirədə də dövlət başçısı ölkəmizin və ordumuzun inkişaf tendensiyasını, onun gücləndirilməsi istiqamətində atılan addımları xüsusi vurğuladı.

"Deyə bilərəm ki, bütövlükdə 2019-cu il ölkəmiz üçün uğurlu il olmuşdur. İlin əvvəlində qarşıya qoyduğumuz bütün vəzifələr uğurla icra edildi, ölkəmizin dayanıqlı inkişafı təmin olundu. Beləliklə həm siyasi, həm iqtisadi, həm də sosial sahələrdə böyük uğurlar əldə edilmişdir. Azərbaycan sabitlik şəraitində yaşamışdır. Sabitlik hər bir ölkənin inkişafı üçün əsas şərtdir. Bizim hərbi potensialımız da möhkəmləndi. Ötən il bir çox silahlar, sursatlar, hərbi texnika alınmışdır. Təsadüfi deyil ki, Azərbaycan Ordusu hərbi potensialına, maddi-texniki təchizatına və döyüş qabiliyyətinə görə dünyada 52-ci yerdədir. Keçən il əldə edilmiş nəticələr, o cümlədən hərbi şəhərciklərin tikilməsi, təmiri, yeni müasir texnika ilə təchizat məsələlərin həlli bizim hərbi gücümüzü daha da artırmışdır", - deyə ölkə başçısı ordunun inkişaf məsələsinə toxunmuşdur.

Azərbaycanın ərazi bütövlüyünün hələ bərpa edilmədiyi, torpaqlarımızın düşmən işğalında olduğu bir vaxtda Azərbaycan Ordusunun gündəlik həyatında hərbi intizamın əhəmiyyəti gündən-günə artır. 2020-ci ilin qış tədris dövrünün yekunları bir daha göstərir ki, möhkəm hərbi intizam və qayda-qanun hərbi hissə və bölmələrdə yüksək döyüş hazırlığının əldə olunmasının əsas şərtidir. İkinci yarımillikdə isə qarşıya qoyulmuş tapşırıqların öhdəsindən layiqincə gəlmək üçün döyüş hazırlığının yüksəldilməsi, öz vəzifə borclarının şüurlu dərk edilməsi və onların vicdanla yerinə yetirilməsi hər bir hərbi qulluqçudan tələb olunur. Yalnız möhkəm hərbi intizama malik olmaqla, komandirlərin əmr və göstərişlərini dəqiq və sözsüz yerinə yetirməklə dərslərdə, təlimlərdə və gələcək döyüşlərdə yüksək nəticələr əldə etmək olar.

Aprel döyüşləri və Naxçıvan əməliyyatındakı qələbələr Azərbaycan Ordusunun düşmən üzərində böyük zəfərinin başlanğıcı oldu. Əminik ki, ordumuz belə qələbələrlə xalqımızı çox sevindirəcək və ərazi bütövlüyümüz tezliklə bərpa olunacaq!

Ulu öndər Heydər Əliyevin siyasi kursunun layiqli davamçısı, Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev bu gün də ordu quruculuğunu daim öz diqqət mərkəzində saxlayır. O, öz çıxışlarından birində demişdir: "Azərbaycan Ordusu güclü ordudur. Biz çalışacağıq və əminəm nail olacağıq ki, bu ordu daha da güclənsin və qarşıda duran bütün məsələləri həll edə bilsin".

Ordumuzun döyüş əhval-ruhiyyəsini yüksəldən əsas amillərdən biri də Azərbaycan Ordusunun yeni müasir texnika və silahlarla təchiz edilməsi, hərbi qulluqçuların məişət şəraitinin yaxşılaşdırılmasıdır. Ordu quruculuğu dövlət üçün prioritet olduğu üçün dövlətimizin müdafiə potensialı artır, ordumuz daha da güclənir.

Hər bir hərbi qulluqçu ona göstərilən diqqət və qayğını, etimadı dərindən dərk etməli, hərbi xidmətində "yüksək hərbi intizam döyüşdə qələbənin təməlidir" şüarına əsaslanmalıdır, döyüş hazırlığı məşğələlərində və xidməti fəaliyyətdə öz intizamı ilə fərqlənməlidir.

**İdeoloji İş və Mənəvi-Psixoloji Təminat İdarəsi**

AZƏRBAYCAN ORDUSU



1 iyul 2020-ci il

# "Azərbaycan-Pakistan müdafiə əməkdaşlığı: Nailiyyətlər və İmkanlar" adlı beynəlxalq vebinar keçirilib

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, Azərbaycan Respublikasının Pakistandakı Səfirliyinin və Pakistanın Qlobal və Strateji Araşdırmalar Mərkəzinin (CGSS) birgə təşkilatçılığı ilə Azərbaycan Silahlı Qüvvələrinin 102-ci ildönümünə həsr olunmuş "Azərbaycan-Pakistan müdafiə əməkdaşlığı: Nailiyyətlər və İmkanlar" adlı beynəlxalq vebinar keçirilib.

Vebinarda Pakistanın Milli Təhlükəsizlik üzrə sabiq məsləhətçisi, ehtiyatda olan general-leytenant Nasir Xan Cancua fəxri qonaq qismində, CGSS-in prezidenti, ehtiyatda olan general-mayor Seyid Xalid Əmir Cəfri, Pakistanın ölkəmizdəki hərbi attaşesi polkovnik Nadim Çoudri, CGSS-in icraçı direktoru Xalid Teymur Əkrəm, Azərbaycan Silahlı Qüvvələrinin Pakistandakı Hərbi Attaşe Aparatı üzvləri, eləcə də Azərbaycan və Pakistan hərbçiləri, ekspertləri və müxtəlif ölkələrin Pakistanda akkreditə olunmuş hərbi



attaşeləri iştirak ediblər.

Vebinarda çıxış edənlər Azərbaycan Silahlı Qüvvələrinin yaradılmasının 102-ci ildönümü münasibətilə təbriklərini çatdırıb, iki ölkə arasında mövcud olan dostluq və qardaşlıq münasibətlərindən söz açıb, ikitərəfli hərbi əməkdaşlığın uğurlarından və iki ölkə arasında hərbi sahədə münasibətlərin dinamik inkişaf perspektivlərindən danışıblar.

Tədbirdə çıxış edən Azərbaycan Silahlı Qüvvələrinin Pakistandakı hərbi attaşesi polkovnik Mehman Novruzov Silahlı Qüvvələrimizin yaranma tarixi və inkişaf yolundan danışaraq vebinar iştirakçılarına ordumuzun qazandığı nailiyyətlər barədə geniş məlumat verib.

Ölkəmizin Pakistandakı səfirliyi adından iştirakçıları salamlayan səfir Əli Əlizadə iki qardaş xalqın iradəsini əks etdirən möhkəm dostluq və tərəfdaşlıq münasibətlərinə malik olduqlarını bildirib, bu münasibətlərin ən əhəmiyyətli sahələrindən birinin hərbi, müdafiə, təhlükəsizlik və strateji tərəfdaşlıq olduğunu vurğulayıb. Hər iki ölkə rəhbərlərinin müəyyən etdiyi strateji istiqamətlərə uyğun olaraq əməkdaşlığın bütün sahələrində yüksəlişin olduğunu qeyd edən səfir tədbirin təşkilatçılarına və iştirakçılara təşəkkürünü bildirib.

Vebinarda Azərbaycan Silahlı Qüvvələri haqqında video da nümayiş etdirilib, həmçinin iştirakçıların mövzu ilə bağlı fikir və təəssüratları dinlənilib və sualları cavablandırılıb.

# "Hərbi xidmət həm də həyat məktəbidir"

*Düşmənlə təmas xəttində yerləşən bölmələrimizin birində əsgərlərimizin əhatəsindəyik. Söhbətləşəndə onlardan hərbi xidmətin gənclərin həyatında rolu haqqında düşüncələrini soruşuruq.*



Əsgər Surxan Ələkbərov hərbi xidmətə Göygöl rayonundan çağırılıb. O hərbi xidmət xatirələrinin yaddaşında əbədi həkk olunduğunu dedi. "Uşaqlıqdan hərbi mundirə böyük sevgi ilə böyümüşəm. Həmişə hərbçi görəndə "əsgəri salam" verir, qabağına qaçıb onunla danışmağa çalışırdım. O vaxtlar hərbi rütbə tanımırdım. Hamısına əsgər deyirdim. Həmin günü özümü başqa cür hesab edirdim. Tez evə qayıdıb əsgərlə söhbət etdiyimi valideynlərimə danışardım. Onlar da vaxtı gələndə sən də hərbi formanı geyinib Vətənimizin müdafiəsində dayanacaqsan deyirdilər. Böyüklərimiz hərbi xidmətin vacibliyi və ciddiliyi haqqında çox danışırdılar. Kütləvi informasiya vasitələrində hərbi verilişlərə baxırdım. Çalışırdım ki, hərbi xidmətə çağırılanda ilkin biliklərə sahib olum. Hərbi formanı geyindiyim gün sevincimin həddi-hüdudu yox idi. Valideynlərim, dostlarım, qohumlarım Vətənə sədaqət andımın şahidi oldular. Onların baxışlarında mənimlə fəxr etdiklərini görməmək mümkün deyildi. Mən də onların etimadını doğrultmağa çalışıram. Artıq xidmətimi başa vururam. Yoldaşlarımdan ayrılmaq bir qədər çətindir. Harda olsam da mən hər zaman əsgərəm. Yüksək döyüş ruhuna və bacarığına malik əsgər kimi, Ali Baş Komandanın əmri ilə Qarabağımızı işğaldan azad etmək üçün sıraya qayıtmağa hər an hazıram".

- Hərbi xidmət bir həyat məktəbidir, - əsgər Saleh Yusubzadə dedi. - Burada döyüş hazırlığı öyrənməklə yanaşı, Vətən sevgisinin nə olduğunu anlayırsan. Düşmənə nifrət hissin artır. Bir gənc kimi yaxşı anlayıram ki, xidmət illəri bizə bir çox keyfiyyətlər aşılayır. Komandirlərimizin səyi nəticəsində hər birimiz hazırlıqlı əsgər kimi formalaşdıq. Hamımız üzərimizə düşən vəzifəni - Vətən torpaqlarının bizə əmanət olduğunu dərk edirik. Hər qarış torpağını qorumaq üçün əlimizdən gələni əsirgəmirik. Xidmətimin çox hissəsi geridə qalıb. Hərbi xidmətdən ehtiyata buraxılsam da, döyüş əmri verildiyi vaxt yenidən ordu sıralarına qayıtmağa hazıram. İnanıram ki, həmin gün uzaqda deyil. Xidmətə yeni başlayan yoldaşlarıma komandirlərimizin dediklərinə riayət etmələrini, öyrətdiklərini dərindən mənimsəmələrini tövsiyə edirəm.

"Hərbi xidmət dəmir intizam tələb edir. Nizam-intizam isə sıradan başlanır. Sıra müqəddəsdir, bu sıralarda Mübarizlər, Samidlər, Raquflar dayanıblar. Onların keçdiyi döyüş yolu, vətənpərvərlikləri hər



birimizə nümunədir. Xidmətimi başa vurmağıma az qalıb. İndi də nizam-intizamlı və bacarıqlı əsgər olmaq üçün əlimdən gələni əsirgəmirəm. Hərbi mundiri geyinmək hər kəsə qismət olmur. Biz bunun məsuliyyətini dərk edirik. Bu müqəddəs vəzifənin öhdəsindən layiqincə gəlmək üçün əlimizdən gələni əsirgəmirik. Komandirlərimizin öyrətdiklə-



rini dərindən mənimsəməli, asudə vaxtlardan səmərəli istifadə etməliyik. Xidmətimi başa vurmağıma az qalsa da, vaxtın necə keçdiyini hiss etmədim. Düşmənlə təmas xəttində yerləşən bölmələrdən birində xidmət etməyimdən çox qürurluyam. Hərbi xidmətimi uğurla başa vurmağa hazırlaşan əsgər kimi xidmətə yeni başlayan əsgərlərə uğurlar arzulayıram. Onlara silahımı, dəmir dəbilqəmi və zirehli gödəkçəmi təhvil verərək mənim kimi xidmətlərində məsuliyyətli, nizam-intizamlı, cəsur, mərd, vətənpərvər olmalarını diləyirəm. Döyüş əmri veriləndə biz də onlarla birlikdə torpaqlarımızı düşməndən azad edəcəyik", - əsgər Nahid Xankişiyev dedi.

Vətənimizin müdafiəsində dayanan igidlərimizlə söhbətimizdən sonra bir daha əmin olduq ki, torpaqlarımız qətiyyətlə müdafiə olunur. Əsgərlər ruhən özlərini Vətəni üçün, sabahlar üçün də əsgər bilirlər.

**Baş leytenant Ruslan HƏSƏNZADƏ, "Azərbaycan Ordusu"**

# Hərbi vətənpərvərlik tərbiyəsində veteranlar da yaxından iştirak edir

*Müdafiə Nazirliyinin "N" hərbi hissəsinin açılışında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev gənclərimizin hərbi vətənpərvərlik tərbiyəsini daha da formalaşdırmağı, Ermənistanın elan etmədən apardığı müharibədə ideoloji işin yüksəldilməsinin vacibliyini vurğulayıb. Ali Baş Komandan hərbi hissələrdə ideoloji tərbiyənin yüksək səviyyədə təşkil edilməsinin, gənclərimizin vətəndaş olaraq milli ruhda, vətənpərvərlik ruhunda formalaşmalı olduğunu, ölkəmizin tarixi ilə əlaqədar dolğun biliklər əldə etməsini, eləcə də Ermənistanın Azərbaycan torpaqlarında yaradıldığını, Ermənistanın xəritəsində coğrafi toponimlərin əsl adlarını bilməsinin vacibliyini xüsusi olaraq qeyd edib.*

Ali Baş Komandan İlham Əliyevin qətiyyətli mövqeyi təsdiqləyir ki, Azərbaycan torpağında ikinci erməni dövlətinin yaradılmasına imkan verilməyəcək. Silahlı Qüvvələrimizin döyüş qabiliyyəti daim artırılır, ordumuz daha da güclənir və Azərbaycanın ərazi bütövlüyünü bərpa etməyə qadirdir.

Hərbi təhlükəsizliyimizin qarantı olan Azərbaycan Silahlı Qüvvələri müstəqilliyimiz və suverenliyimizin təminatçısıdır. Bu mesajı dövlətimizin başçısı beynəlxalq təşkilatlara həmişə qətiyyətlə çatdırır və Azərbaycanın öz mövqeyindən dönməyəcəyini bildirir. Bu tələblərin başlıca məntiqi budur ki, ATƏT-in Minsk Qrupu Ermənistan tərəfinin beynəlxalq hüquqla bir araya sığmayan qanunsuz addımlarına obyektiv münasibət bildirməlidir. Beynəlxalq hüququn prinsipləri tətbiq edilməli, işğalçı ilə işğala məruz qalana eyni yanaşmaya, ikili standartlara birdəfəlik son qoyulmalıdır. Çünki bu həqiqət hamıya məlumdur ki, Azərbaycan beynəlxalq təşkilatlardan layiq olduğu ədalətli mövqeyi görməyincə, münaqişənin sülh yolu ilə həlli mümkün olmayacaq.

Respublika Veteranlar Təşkilatı da bu inamlı siyasətin mümkün qədər tez reallaşmasına öz dəstəyini Silahlı Qüvvələrdə vətənpərvərliyin, şəxsi heyətin ideoloji hazırlığının yüksəldilməsində iştirakda görür. Hərbi vətənpərvərlik tərbiyəsində veteranlar da yaxından iştirak edir. Biz bu fəaliyyətimizi davam etdirməyə, malik olduğumuz təbliğat vasitələrindən, qəzetimizdən və rəsmi saytımızdan, habelə ölkə KİV-nin imkanlarından bundan sonra da yararlanacağıq.

Ordu, təhlükəsizlik, ərazi bütövlüyü kimi məsələlərdə xalqla dövlətin birliyi olduğu kimi, cəmiyyətin, onun müxtəlif siyasi təşkilatlarının, ayrı-ayrı qrupların da maraqları, mövqeləri eynidir. Biz erməni faşizmi ilə mübarizədə bütün imkanlarımızdan səmərəli istifadə edəcəyik

Müdafiə Nazirliyinin "N" hərbi hissəsinin açılışında Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin çıxışı daim Azərbaycan Ordusunun yanında olan veteranları da ruhlandırır və onları daha əzmkar fəaliyyətə səfərbər edir.

**Cəlil XƏLİLOV,**
**Azərbaycan Respublikası Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının sədr müavini, ehtiyatda olan polkovnik**

# Alpinist idmançılarımız Şahdağ zirvəsində



*Azərbaycan Ordusunun alpinizm üzrə idmançıları ordumuzu beynəlxalq arenada layiqincə təmsil edərək, ən uca zirvələrə ekspedisiyalar təşkil edirlər. Bu günlərdə Azərbaycan Respublikasının Silahlı Qüvvələrinin yaranmasının 102-ci ildönümünə həsr olunmuş "Bir əsr Vətən keşiyində" adlı idman tədbirini həyata keçiriblər.*

Ekspedisiya Hərbi Hava Qüvvələrinin Komandanının müvafiq əmrinə əsasən iyunun 18-də başlayıb. Ekspedisiyaya Quba rayonunun Xınalıq kəndi yaxınlığında yerləşən Şahdağ milli parkı ərazisindən start verilib. Ekspedisiya üzvləri Hərbi Hava Qüvvələrinin zabitləri polkovnik-leytenant Zal Nəbiyev, baş leytenant Ülvi Məmmədli (hərbi alpinistlər) və Azərbaycan Alpinizm Federasiyasından alpinist Nemət Ağayev olub. Alpinist idmançılarımız Şahdağ zirvəsinə alpinizm ekspedisiyasından müvəffəqiyyətlə geri dönüblər.

Ekspedisiya haqqında ətraflı məlumat almaq məqsədilə baş leytenant Ülvi Məmmədli ilə həmsöhbət olduq.

- Ekspedisiyada zirvəyə doğru yürüş iyunun 20-də yerinə yetirildi, - deyə baş leytenant Ülvi Məmmədli söhbətə başladı. - Ekspedisiya üzvləri dəniz səviyyəsindən 4243 m yüksəklikdə yerləşən Azərbaycan Respublikasının ikinci yüksək zirvəsi olan Şahdağ zirvəsində Azərbaycan Respublikasının üçrəngli bayrağını, Azərbaycan Ordusunun və Hərbi Hava Qüvvələrinin bayraqlarını dalğalandırdı.

İştirak etdiyi ekspedisiyalar haqqında danışan baş leytenant Ülvi Məmmədli bildirdi ki, alpinizmdə üç cür hazırlıq vardır: ekspedisiyaya qabaqcadan hazırlıq, ekspedisiya qabağı hazırlıq və ekspedisiyanın ümumi hazırlığı. "Ekspedisiyaya qabaqcadan hazırlıq zamanı ekspedisiyada iştirak edən təlimatçıların, tələbələrin və xilasedicilərin bütün təchizatları, nəzəri və praktiki bilikləri yoxlanıldıqdan sonra yola düşülür. Ekspedisiya qabağı hazırlıq isə zirvə yürüşünə və ya digər düşərgəyə yollanmazdan 40 dəqiqə əvvəl aparılır. Ekspedisiyanın ümumi hazırlığı ayda bir dəfə klub rəhbərləri və təlimatçılar tərəfindən konfrans şəklində keçirilir. Burada bütün səhvlər təhlil edilir. Bu zamanı əvvəllər keçilən marşrutların bənzər tərəfləri də təhlil olunur. Bu ekspedisiya zamanı da bütün lazımi tədbirlər görülmüşdü. Belə bir ekspedisiyanı təşkil etdiyi üçün Müdafiə Nazirliyinin rəhbərliyinə minnətdarlığımı bildirirəm".

- Azərbaycan Respublikasının üçrəngli bayrağını dalğalandırmaq, dövlət himnini səsləndirmək, ordumuzun şan-şöhrətini dünyaya yaymaq hər birimiz üçün müqəddəs və şərəfli vəzifədir, - deyə baş leytenant Ülvi Məmmədli davam etdi. - 102-ci ildönümünü qeyd edən ordunun zabiti olaraq, deyə bilərəm ki, istənilən sahədə əldə etdiyimiz nailiyyətlər bizi qələbəyə daha da yaxınlaşdırır. Fürsətdən istifadə edərək başda ordumuzun rəhbər heyətini və onların tabeliyində xidmət edən şəxsi heyəti təbrik edir, möhkəm cansağlığı və xidmətlərində uğurlar arzulayıram. İnanıram ki, zirvələrdə dalğalandırdığımız üçrəngli bayrağımızı tezliklə Ali Baş Komandanın verəcəyi əmrlə Şuşada, Laçında, Xocalıda, Zəngilanda..., dalğalandıracağıq.

Azərbaycan Respublikasının Silahlı Qüvvələrinin yaranmasının 102-ci ildönümünə həsr olumuş "Bir əsr Vətən keşiyində" adlı Şahdağ zirvəsinə alpinizm ekspedisiyasının davamlı olacağı nəzərdə tutulur.

**Baş leytenant Günay TAĞIYEVA, "Azərbaycan Ordusu"**

## *Hərbi texnikalar, silahlar*

# JF-17 Thunder qırıcı-bombardmançı təyyarəsi



JF-17 Thunder ("Joint-Fighter" - "Vahid Qırıcı", "Thunder" isə "İldırım" mənasını verir) və ya FC-1 Xiaolong ("Fighter-China" - "Çin Qırıcısı", "Xiaolong" isə "Qəddar Əjdaha" mənasını verir) qırıcı-bombardmançı təyyarə Pakistanın "Pakistan Aeronautical Complex" (PAC) və Çinin "Chengdu Aircraft Corporation" (CAC) şirkətləri tərəfindən birgə istehsal olunur. JF-17 Thunder tək mühərrikli, yüngül çəkili, çoxməqsədli dördüncü nəsil qırıcı-bombardmançı təyyarədir.

JF-17 hava kəşfiyyatı aparmaq, yer hədəflərinə hücum və qarşı tərəfin hava hədəflərinin məhv edilməsi məqsədləri üçün hazırlanıb. Döyüş təyyarəsi müxtəlif növ hava-hava və hava-yer tipli raketlərlə təchiz edilib, Guizhou WS-13 və ya Rusiya istehsalı RD-93 mühərriki ilə təchiz olunub.

Qırıcının heyəti bir pilotdan ibarətdir. Uzunluğu 14,93 metr, hündürlüyü 4,72 metr, qanadlarının açılması 9,46 metr, qanadlarının sahəsi 24,4 kvadrat metrə qədərdir. Qırıcının boş halda çəkisi 6411 kiloqram, normal uçuş çəkisi 9072 kiloqram, maksimal uçuş çəkisi 12474 kiloqramdır. JF-17 qırıcısının daxili yanacaq tutumu 2300 kiloqrama qədərdir. Güc təminat qurğusu TRDDF RD-93 mühərrikidir.

Qırıcının maksimal sürəti 2205 kilometr saat, yerdə 1296 kilometr saatdır.

JF-17 Thunder qırıcı-bombardmançı təyyarəsinin silahlanmasında 1 ədəd 23 mm-lik ikilüləli "Tip 23-2" topundan, hava-hava tipli idarəolunan PL-7, PL-10, R550 Magic 2, A-Darter, PL-5C, AIM-9LP, MICA, Aspide raketlərindən, həmçinin idarəolunmayan 57 və 90 mm-lik raketlərdən, 1 ədəd AM-39 Exocet raketindən, Mk.82, Mk.84, GBU-10, GBU-12, Durandel və Mk.20 Rockeye bombalarından da istifadə edilir.



Silahlar 7 asılma nöqtəsində (2-si qanadlarının axırında, 4-ü qanadların altında və 1-i füzelyajın altında) yerləşdirilir.

Döyüş yüklənməsi 3630 kiloqrama qədərdir.

Qırıcı-bombardmançı JF-17 Thunder təyyarəsinin JF-17 Block 1, JF-17 Block 2 və JF-17 Block 3 kimi modifikasiyaları da mövcuddur.

**Hazırladı: Svetlana YUSUBOVA, "Azərbaycan Ordusu"**

# Xəbərlər: hadisələr, faktlar

## Türkiyədə daha üç terrorçu təhlükəsizlik qüvvələrinə təslim olub



Biri axtarışda olan daha üç terrorçu Türkiyənin təhlükəsizlik qüvvələrinə təslim olub.

Bu barədə ölkənin Daxili İşlər Nazirliyi məlumat yayıb. Məlumata görə, təslim olan şəxslər terror təşkilatına 2013-cü ildən daxil olublar. Beləliklə, bu il yanvarın 1-dən bəri təhlükəsizlik qüvvələrinə təslim olan terrorçuların sayı 92 nəfərə çatıb.

Nazirliyin digər məlumatında bildirilir ki, Vanın Çatak rayonu ərazisində aviasiyanın dəstəyi ilə keçirilən əməliyyat zamanı üç terrorçu zərərsizləşdirilib. Onlar iyunun 8-də Belbuka yaylağında işçiləri daşıyan maşının keçdiyi yolda partlayış törətməklə iki nəfərin ölümünə səbəb olan terrorçulardır.

## İran ordusunun yeni təyyarəsi təqdim olunub



İran hərbi sənayesinin istehsalı olan "Kövsər" hərbi təyyarəsi Hərbi Hava Qüvvələrinin sərəncamına verilib.

Bununla əlaqədar keçirilən mərasimdə İranın Müdafiə naziri general Əmir Xatəmi qırıcı təyyarənin sırf ölkəsinin müdafiə sənayesinin istehsalı olduğunu, onun heç bir detalının xaricdən alınmadığını bildirib. Onun sözlərinə görə, bu döyüş təyyarəsindən təlim üçün də istifadə etmək olar.

Təyyarə İsfahandakı hərbi sənaye müəssisəsində istehsal edilib.

## Litva Polşada ABŞ hərbi qüvvələrinin sayının artırılmasını müsbət qarşılayır



Litva ABŞ hərbçilərinin Almaniyadan çıxarılmasının riskli olduğu, lakin digər tərəfdən onların Polşada dislokasiyasına müsbət yanaşır.

Bu barədə ölkənin Müdafiə naziri Raymundas Karoblis məlumat verib.

"İlk növbədə, ABŞ ordusunun Almaniyadan çıxarılacağı yaxşı hal deyil. Onların infrastrukturu, prosedurları, təlim, hazırlıq keçmə imkanları var və biz həqiqətən bu addıma NATO ölkələri ilə Avropa arasında müəyyən bir parçalanmaya səbəb ola biləcək bir risk kimi baxırıq", - deyə nazir "LRT" radiostansiyasına müsahibəsində bildirib.

O əlavə edib ki, digər tərəfdən, ölkəsi həmişə ABŞ hərbi qüvvələrinin daha çox sayda Avropada və xüsusən də bölgədə olmasının tərəfdarı olub: "Polşa vacib məntəqələrdən biridir, biz hər zaman Polşanın ABŞ-ın mümkün qədər çox hərbi qüvvəsini öz ərasinə cəlb etmək cəhdlərini alqışlamışıq".

## Misirdə 16 polis əməkdaşını qətlə yetirən liviyalı terrorçu edam edilib



Misirdə 2017-ci ilin oktyabrında Qahirə yaxınlığında 16 polisin ölümü və 13 qanun keşikçisinin yaralanması ilə nəticələn terror aktının təşkilatçısı Əbdül Rəhim Mismari edam edilib.

Bu barədə Misirin Daxili İşlər Nazirliyi məlumat yayıb. Məlumatda bildirilir ki, terrorçu Misir təhlükəsizlik qüvvələrinin keçirdiyi əməliyyat nəticəsində yaxalanıb, onunla bir qruplaşmada olan 15 silahlı isə məhv edilib. İstintaqla müəyyən edilib ki, terrorçular Liviya ərazisində təlim keçib və Qərbi Səhra bölgəsindən Misirin Giza ərazisinə keçiblər. Ötən ilin noyabrında ələ keçirilən təhlükəli terrorçu barəsində Misirin hərbi məhkəməsi tərəfindən ölüm hökmü çıxarılıb.

**AZƏRTAC-ın materialları əsasında**

**Baş redaktor**
polkovnik-leytenant İlham BEHBUDOV

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98;
Məktublar şöbəsi: (012) 510-64-28.

**Ünvanımız**
Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi

**Növbətçi**
leytenant Oruc MUSTAFAYEV

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. "Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək "Hərbi nəşriyyat"ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.
Qəzeti mod.gov.az saytından oxuya bilərsiniz.

Lisenziya № 361
Sifariş № 410
Nüsxə 3960